Əziz oxucular nə qədər acı olsa da deməliyik ki, müasir Azərbaycanda əksər idarə strukturlarına, həmçinin incəsənət sahəsinə təsadüfü adamların yol tapması, tanışlıq, qohumbazlıq, yerlibazlıqla təyinat alıb mühüm vəzifələrdə əyləşməsi nadir sənət adamlarının kənarlaşdırılaraq ölkədən getməsinə şərait yaradıb. Elə sənət adamlarını itirmişik ki, onlar hələ-hələ yetişmir və 40-50 ildə meydana gələ bilir. Bu yazıda da böyük istedada, yüksək bacarığa malik nadir sənətkar, əvəzsiz baletmeyster, görkəmli xoreoqraf barədə faktları və fikirlərimizi ortaya qoyacağıq.



# Azərbaycan rəqs sənətinin sevilən nümayəndəsi

## Fərhad Vəliyev yaradıcılığı rəqs quruluşlarımızın yeni və uğurlu bir səhifəsidir

*(Əvvəli ötən sayımızda)*

Fərhad Vəliyev yaradıcılığı Əlibaba Abdullayevdən sonra milli rəqs quruluşlarımızın yeni və uğurlu bir səhifəsidir. O, bu sahədə geniş təcrübəyə malik olaraq mühüm işlər görmüşdür.

Fərhad Əlibaba Abdullayevdən sonra yeganə xoreoqraf olaraq quruluşlarda öz dəsti-xəttini formalaşdırmağı bacarmışdır. Onun təhsili ali, dünya görüşü və maraq dairəsi çox genişdir. O, istər klassik, istərsə də çağdaş rəqs sənəti nümunələrini canlandırmaqda çox mahirdir. Burada onun hiss və duyğuları, rəqsin hər bir cizgisinə, hər bir hərəkətə, məzmuna yaradıcı münasibəti mühüm rol oynayır. Bu adam rəqslərə obrazlı görkəm verə bilir. Onun quruluşlar verdiyi rəqslər, suitalar, kompozisiyalar bədii-estetik cəhətdən öz zənginliyi və təsir gücü ilə seçilir, sevilir və xatırlanır. Fərhadın rəqs quruluşları dar məkan üçün deyil, geniş əhatə dairəsi və dünyaduyumu üçün nəzərdə tutulur. Burada ümumbəşəri düşüncəyə yer var. Onun rəqslərində öz həssas ürəyinin ritmi, geniş qəlbiinin döyüntüləri və duyğulu məqamlar var. Əslində onun rəqs quruluşlarının hər birinə bədii şərh verilməlidir. Necə ki, dünyaca xoeoqrafiya sənətində bu var və bununla mütəxəssilər məşğul olur.

F.Vəliyevin bir sıra rəqslərində kəskin cizgilər, yüksək dinamik ardıcıllıq vardır ki, bünlar təsir gücü yaradır. Onun işi yüksək insan zəkasının, yaradıcı insan zövqü və düşüncəsinin məhsuludur. O, Azərbaycanda bəlkə də, adi xoreoqraf kimi qəbul olunub. Lakin bu belə deyildir. F.Vəliyev milli rəqs sənətimizin nadir incisi, dərin bilicisi, zəngin təxəyyülə malik, işinə pərgar baletmeyster, sənətinin vurğunu, dünya xoreoqrafiya sənətinə yaxından bələd olan bir mütəxəssisdir. Bir bacarıqlı, püxtələşmiş xoreoqraf olaraq verdiyi quruluşlarda o, təbii ki, fərqli mövqe nümayiş etdirmişdir.

Fərhad bəzi rəqslərdə kompozisiya daxilində daha qabarıq, dərhal diqqətçəkən görüntülər vermişdir. Onun rəqs kompozisiyalarında rəqqas-aktyor, rəqqasə-aktrisanın duyğulandırıcı yaşanıları və məntiqi nəticə vardır. Onun fərqli, usta cəhəti həm də ondan ibarətdir ki, qurduğu rəqsin süjetini kompozisiya daxilində daha anlaşıqlı, qabarıq, cəzbedici göstərə bilməsidir. F.Vəlievin öz yaradıcılıq ruhundan doğan fikirləri görülən işin daxilində özünü acıq-aydın biruzə verir. Bu adamın aşıb-daşan enerjisi var ki, heç vaxt bitib tükənmir. Bu keyfiyyətlər və üstün cəhətlər Ə.Abdullayevdə olmuş və bütün yaradıcılığı boyu onu tərk etməmişdir. Əlibaba müəllimin yaradıcılığında olduğu kimi F.Vəliyevin rəqs quruluşlarında da mövzu rəngarəngliyi mövcuddur.

Bacarıqlı, istedadlı, yaradıcı təvəkkürü çox geniş olan belə baletmeysterlərin rəqs quruluşlarında obrazlı düşüncələrin bədii forması, nümunələri vardır. Ə.Abdullayev və F.Vəliyevin quruluşları bədii ifadə baxımından bənzərsizliyi ilə seçilir. Bu ölməz sənətdir. Belə orijinal sənət tərixi-bədii baxımdan çox dəyərlidir. Bu rəqs quruluşları yalnız ifa tərzi ilə deyil, məzmun və məna çalarları tərəfdən özündə bir sıra yenilikləri əks etdirir.

Fərhad Vəlyev 1987-1988-ci illərdə Azərbaycan Dövlət Rəqs ansamblında "Şələqoy" (Şalaxo), "Yallı", "Nağaraçılar", Ü.Hacıbəylinin "Cəngi", R.Hacıyevin "Qaytağı", F.Əmirovun "Azərbaycan suitası" və Niyazinin "Qaytağı"sına kütləvi rəqslər qurmuşdur. Onun H.Xanməmmədovun musiqisinə Nizami Gəncəvinin qəzəli əsasında hazırladığı "Xəyal" duet rəqsi fəlsəfi əsərdir. Bu rəqs-əsər barədə bir neçə dəfə yazılarım olsa da, bir daha fikir bildirməyi lazım bilirəm. "Xəyal" bir əsər kimi diqqəti cəlb edir. Burada lirik məqamlar, həssas duyğular ön plana çıxır. Əsərdə lirik duyğuların bədiiləşməsi vardır. Çünki baletmeyster "Xəyal" rəqs kompozisiyasında çox önəmli bir yaşantını duyğulandırıcı halda, bədii tutumda ustalıqla verə bilib. Burada bir zəngin forma-kompozisiya nəzəri cəlb edir. Mümkündür deyək ki, Fərhad bu əsərdə yalnız quruluşçu xoreoqraf deyil, həm də romantik hisslərlə zəngin bir rəssamdır, heykəltəaşdır, musiqiçidir, rejissordur. "Xəyal"da fantastik baxış bucağı da vardır. F.Vəliyev bir çox rəqs quruluşlarında, həmçinin "Xəyal" kompozisiyasında əsərə güclü bədiilik verə bilən əsl rejissordur. Buradakı bədii ovqat insanı düşünməyə vadar edir. Elə hər bir həqiqi əsər də insanın hiss və duyğularına təsir etməli və onu düşündürməlidir.

F.Vəliyev 2005-2007-ci illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblında "Çayçı", "Nağaraçalanlar", "Laqquti", "Qaytağı", "Çobanlar", "Dərbəndi" rəqslərinə və "Döyüş" kompozisiyasına quruluşlar vermişdir. Onun bəstəkarlarımızın əsərlərinə verdiyi quruluşlar da zənginliyi ilə seçilmişdir. Bu sırada "Muğan ceyranları (C.Quluyev), "Yallı" (T.Hacıyev), "Suita" (M.Quluyev) rəqs quruluşlarını göstərə bilərik. F.Vəliyev Mahnı və Rəqs ansamblında Ü.Hacıbəyli, Q.Qarayev, C.Cahangirov və R.Əfəndiyevin yaradıcılığından seçmələr etdiyi musiqi əsərləri əsasında "Vətən övladları" adlı möhtəşəm kompozisiya da hazırlamışdır. F.Vəliyev yorulmadan çalışaraq, öz yaradıcılıq təxəyyülündən bacarıqla istifadə edib ansambl ilə hazırladığı iki hissəli konsert proqramı öz zənginliyi ilə seçilmişdir. Çox əfsus ki, belə dəyərli yaradıcılıq işlərinə vaxtında mütəxəssis rəyi verilmir.

F.Vəliyev 1987-1988-ci illərdə Azərbaycan Dövlət Rəqs ansamblında çalışarkən Ü.Hacıbəylinin "Cəngi" əsərinə rəqs quruluşu vermişdir. O, "Cəngi"də solonu Namus Zöhrabovu nəzərdə tutaraq qurub.

Fərhad Vəliyev Qorxmaz Qurbanovdan sonra R.Behbudov adına Dövlət mahnı Teatrında 1998-1999-cu ildə işlədiyi zaman bir sıra kiçik rəqslərə quruluşlar vermişdir. Bunlar ifa olunan instrumental musiqi və repertardakı mahnılar üzərində olmuşdur. Bu yaradıcılıq işi mahnıların ideya-bədii məzmununun açılmasında mühüm rol oynamışdır.

Ustad rəqqas-baletmeyster Ə.Abdullayev kimi o da rəqs sənətinin qədim və zəngin ənənələrinə tapınır. Onun da quruluşları doğmadır və tamaşaçının ürəyini oxuya, ruhuna toxuna, gözlərini işıqlandıra və qəlbini nurlandıra bilir. Milli rəqslərimizdəki forma-biçim və ifadə vasitələri ilə tamlıq, tamamlıq, bütövlük yaratmaq ustalığı onun yaradıcılığında üst qatdadır. F.Vəlieyev Ə.Abdullayevdən sonra həqiqətən yeganə və əvəzsiz rəqs sənətçisinə çevrilən xoreoqrafdır. Fərhadın dünyagörüşü, maraq dairəsi, fəhmi, müşahidə qabiliyyəti geniş və təcrübəsi çox böyükdür. İstər klassik, istərsə də çağdaş rəqs sənəti nümunələrini çanlandırmaqda o, çox mahirdir. Onun hiss və duyğularının rəqsin çizgilərinə qovuşması, hər bir hərəkətə və bütövlükdə məzmuna həsas münasibəti mühüm rol oynayır. F.Vəliyev rəqslərə obrazgörkəm verə bilir. Quruluş verdiyi kompozisiyalar bədii-estetik cəhətdən öz zənginliyi və təsir gücü ilə seçilir.



Fərhadın sənətkar olaraq rəqs novatorluğu dar məkan, zəif, zövqsüz düşüncədən ötrü deyil, geniş əhatə dairəsi, işıqlı, saf dünyaduyumu üçün nəzərdə tutulur. Burada ümumbəşəri düşüncələrə yer var. Fərhadın rəqslərində həssas ürəyin ritmi, geniş qəlbin çırpıntıları, milli hiss və duyğuların əks-sədası var. Bu adamda öz işinə sevgili və doğma yanaşma tərzi, isti münasibət çox güclüdür. Əslində, onun rəqs quruluşlarının hər biri tədqiq olunmlı və şərhi verilməlidir, necə ki, "Xəyal"ın fəlsəfəsini açmağa çalışmışıq. Dünya xoreoqrafiya sənətində bu işlə əsl mütəxəssilər məşğul olur.

F.Vəliyevin bir sıra rəqslərinə keskin cizgilər və dinamik ardıcıllıq hakimdir. Bu, yüksək zakalı, zövqlü insan, yaradıcı sənətkar təxəyyülünün məhsuludur. Əsl həqiqət budur ki, o, əvəzsiz bir mütəxəssisdir. Fərhad bəy güçlü təxəyyülə malik, işinə pərgar, vurğun, dünya xoreoqrafiya sənətinə dərindən bələd olan sənət adamı kimi əsl bilik sahibidir. O, püxtələşmiş, zəngin təcrübəli xoreoqraf olaraq bəzi quruluşlarda, təbii ki, müəyyən fərqli mövqe nümayiş etdirib, kompozisiya daxilində daha qabarıq görüntülər verib. Onun rəqs kompozisiyalarında rəqqas-aktyor, rəqqasə-aktrisanı duyğulandıran yaşantılar və nəzərə çarpan məntiqi nəticə var. Bu adamın fərqli və usta cəhəti həm də ondan ibarətdir ki, düşünüb-daşınaraq qurduğu rəqsin süjetini kompozisiya daxilində həll edib cazibədar şəkildə göstərə bilir. F.Vəliyevin öz yaradıcılıq ruhundan doğan fikirləri gördüyü işin daxilində açıq-aydın duyulur.

F.Vəliyev bir xoreoqraf, ilhamlı, zövqlü, yaradıcı şəxs, rəqs sənətimizin inkişafında mühüm rol oynayan bir sənətkardır. O, həqiqətən milli rəqs sənətimizin nadir incisidir.

Bütün bu fikirlərdən sonra bir anlıq düşünək, görək ki, Azərbaycanımızın bu istedadlı oğlu, nadir rəqs mütəxəsssisinə ölkəmizdə necə dəyər verildi, necə qorundu? Onu hər yerdən uzaqlaşdıranda mən Milli Məclisin Mədəniyyət Komitəsinə müraciət etdim. Həmin komitənin o zamankı sədri akademik, cənab Rafael Hüseynov mənim ərizəm əsasında Mədəniyyət Nazirinə müraciət ünvanlamışdı. O, nazirlikdən xahiş etmişdi ki, F.Vəliyev kimi bir mütəxəssisə biganəlik deyil, doğmalıq göstərilsin, belə ustad, təcrübəli baletmeyster incəsənətimizə çox lazımdır. Nəticə isə bu oldu ki, laqeydlik və qayğısızlıq səbəbindən Fərhad Vəliyev də çoxları kimi Amerikaya köçərək orada məskunlaşdı.

**Əhsən RƏHMANLI,**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**